**Sabir İlham ŞÜKÜROV**
Azərbaycan Kooperasiya Universitetinin doktorantı
E-mail: sabir.sh@hotmail.com

# AZƏRBAYCANDA İXRACIN DİVERSİFİKASİYALAŞDIRILMASI VƏ ONUN POTENSİALININ QİYMƏTLƏNDİRİLMƏSİ

**Xülasə**

Tədqiqatın məqsədi Azərbaycanda ixracın diversifikasiyalaşdırılması və onun potensialının qiymətləndirilməsindən ibarətdir. İlk növbədə ixracın diversifikasiyalaşdırılması problemləri açıqlanmışdır. Müasir dövrdə ixrac potensialının artırılması imkanları təhlil olunmuş və ümumiləşdirilmişdir. İxracyönlü məhsulların istehsalının genişləndirilməsinin vacibliyi əsaslandırılmışdır. Ölkədə ixrac potensialının artırılması üzrə tövsiyələr verilmiş və təkliflər hazırlanmışdır. Tədqiqatın metodu kimi bir sıra metodlardan, o cümlədən elmi abstraksiya, təhlil, sintez və müqayisəli təhlil metodlarından istifadə edilmişdir. Eyni zamanda, ixracın diversifikasiyalaşdırılması və ixrac potensialının artırılması üzrə müxtəlif müəlliflərin yanaşmaları nəzərə alınmışdır. Tədqiqatın nəticələri hazırkı dövrdə ölkənin xarici ticarət dövriyyəsinin strukturunun təkmilləşdirilməsində, ixracın diversifikasiya olunmasında və onun potensialının qiymətləndirilməsində istifadə edilməsi ehtimalı yüksəkdir.

**Açar sözlər:** Azərbaycan, ixrac, ixracın diversifikasiyalaşdırılması, ixrac potensialı, ixrac potensialının qiymətləndirilməsi, ixrac konsepsiyası.

**UOT:** 339.5:338.23
**JEL:** F13; O24; F50; F52
**DOI:** https://doi.org/10.54414/HJHK6506

## Giriş

Qeyd edək ki, ixracın diversifikasiyalaşdırılması müasir iqtisadiyyatın ən vacib strateji istiqamətlərindən biri hesab olunur və ölkələrin uzunmüddətli, dayanıqlı inkişafında önəmli rol oynayır. Qloballaşmanın dərinləşdiyi, beynəlxalq bazarlarda rəqabətin artdığı bir şəraitdə yalnız bir və ya bir neçə məhsulun ixracına söykənən iqtisadi model ciddi risklərlə üz-üzə qalır. Qiymət dəyişkənliyi, xarici tələbin azalması, geosiyasi gərginliklər və texnoloji yeniliklər kimi amillər ixracdan asılı olan sahələri asanlıqla zəiflədə bilər. Məhz buna görə, ixracın diversifikasiyalaşdırılması iqtisadi təhlükəsizliyin təmin edilməsi, davamlı artımın qorunması baxımından əsas məqsədlərdən biri kimi ön plana çıxır. İstənilən ölkənin iqtisadi inkişaf strategiyasında reallaşdırılmasında prioritetlərin müəyyənləşdirilməsi xüsusi önəm daşıyır. Bu prioritetlər əsasən ölkənin rəqabət qabiliyyətinin artırılması və iqtisadi təhlükəsizliyinin təmin edilməsi prinsiplərinə əsaslanır. Prioritetlərin seçimi zamanı iqtisadiyyatın diversifikasiyası xüsusilə əhəmiyyətli hesab olunur, çünki uzunmüddətli davamlı artımın təmin edilməsi böyük ölçüdə bu amildən asılıdır. Qloballaşmanın dərinləşməsi və ölkələrarası əlaqələrin genişlənməsi ilə dünya bazarında əmək bölgüsü gücləndikcə, hər bir ölkənin xarici iqtisadi amillərə asılılığı artır [1, s.29]. Bu şəraitdə ən böyük çağırışlardan biri ixracın diversifikasiyalaşdırılmasını təmin etməkdir.

İxracın diversifikasiyalaşdırılması dedikdə, ölkənin xarici bazarlara çıxardığı məhsul və xidmətlərin çeşidinin genişləndirilməsi, həmçinin ixrac coğrafiyasının artırılması nəzərdə tutulur. Bu yanaşma yalnız yeni məhsulların istehsalı ilə məhdudlaşmır, həmçinin mövcud məhsulların emal dərəcəsinin yüksəldilməsi, əlavə dəyər yaradan sahələrin inkişafı və innovasiyaların tətbiqini də əhatə edir.

**Azərbaycanda ixracın diversifikasiyalaşdırılması imkanlarının təhlili**. Qeyd edək

ki, diversifikasiya sayəsində iqtisadiyyat tək bir sektordan asılı vəziyyətdən çıxaraq daha balanslı və çevik struktura malik olur ki, bu da xarici şokların təsirini zəiflədir və gəlirlərin daha stabil olmasına şərait yaradır. İxracın diversifikasiyalaşdırılmasının əsas məqsədlərindən biri iqtisadi risklərin azaldılmasıdır. Əgər ölkə ixrac gəlirlərinin böyük hissəsini bir məhsuldan və ya bir bazardan əldə edirsə, həmin sahədə baş verən hər hansı mənfi dəyişiklik ümumi iqtisadi vəziyyətə ciddi zərbə vura bilər. Müxtəlif məhsul qruplarının və bazarların mövcudluğu bu riskləri bölüşdürür və itkilərin kompensasiya olunmasını asanlaşdırır. Həmçinin, diversifikasiya makroiqtisadi sabitliyin möhkəmlənməsinə, valyuta gəlirlərinin daha proqnozlaşdırılan olmasına kömək edir. Digər mühüm məqsəd rəqabət qabiliyyətinin artırılmasıdır. İxrac strukturunun diversifikasiyası istehsalçıları keyfiyyətin yüksəldilməsinə, yeni texnologiyaların tətbiqinə və beynəlxalq standartlara uyğunlaşmağa təşviq edir. Bu proses yerli müəssisələrin dünya bazarlarında mövqelərini gücləndirir və onların daha yüksək gəlir əldə etməsinə imkan yaradır. Xüsusilə xammal ixracından emal olunmuş məhsulların ixracına keçid əlavə dəyərin ölkə daxilində qalmasını təmin edir və iqtisadi inkişafın keyfiyyətini yüksəldir. Azərbaycanda ixracın diversifikasiyalaşdırılması mövzusu son illərdə ölkənin iqtisadi inkişaf strategiyasında xüsusi yer tutur. Azərbaycanın strateji coğrafi mövqeyi, bol təbii ehtiyatları və kənd təsərrüfatı məhsullarının istehsalına əlverişli iqlim şəraiti ölkənin ixracın diversifikasiyalaşdırılması üçün mühüm zəmin yaradır. Tarixən neft və qaz ixracı xarici ticarətdə aparıcı rol oynamış və dövlət büdcəsinin formalaşmasında əsas element olmuşdur. Lakin son dövrlərdə qeyri-neft məhsullarının ixracını artırmaq məqsədilə görülən dövlət tədbirləri artıq əhəmiyyətli nəticələr verməyə başlamışdır. Bu sahədə kənd təsərrüfatı, kimya və metallurgiya məhsulları, elektrik avadanlıqları, tikinti materialları, tekstil və digər sahələr üzrə ixrac həcmi və təyinat ölkələrinin sayı artmaqdadır. Bütün bunlar iqtisadiyyatın diversifikasiyaşadırılmasına dəstək olmaqla yanaşı, yeni iş yerlərinin yaratmaqla əhali məşğulluğunun yüksəlməsinə də müsbət təsir göstərir [2].

Uzun müddət neft-qaz sektorunun ixracda dominant mövqeyə malik olması iqtisadi artımı sürətləndirsə də, qlobal enerji bazarlarındakı qiymət dəyişkənliyi, geosiyasi risklər və enerji keçidi kimi amillər bu modelin dayanıqlılığını sual altına almışdır. Azərbaycan kimi resursdan asılı iqtisadiyyatlar karbohidrogen ixracından struktur asılılığı səbəbindən əmtəə qiymətlərinin dəyişkənliyinə qarşı yüksək həssaslıqda qalır. Bu zəiflik diversifikasiyalaşdırılmış qeyri-neft ixrac imkanlarının inkişaf etdirilməsinin strateji zərurətini gücləndirir [3, s.254]. İxracın diversifikasiyalaşdırılması alternativ sahələrin inkişafı ilə yanaşı, iqtisadi təhlükəsizliyin, makroiqtisadi sabitliyin və uzunmüddətli rəqabət qabiliyyətinin təmin olunması baxımından strateji önəm daşıyır.

Azərbaycanda ixracın diversifikasiyalaşdırılması, xüsusilə coğrafi diversifikasiya kontekstində mövcud potensialın qiymətləndirilməsi, ənənəvi ixrac bazarlarından asılılığın azaldılması, yeni bazarlara çıxış imkanlarının reallaşdırılması üçün mühüm analitik yanaşma tələb edir. Uzun illər ərzində Azərbaycanın ixrac strukturunda enerji resurslarının dominant mövqeyi ölkəyə əhəmiyyətli valyuta gəlirləri qazandırsa da, bu model xarici şoklara qarşı həssaslıq yaradır və ixracın məkan baxımından məhdud çevrədə cəmlənməsinə səbəb olur.

Coğrafi diversifikasiya baxımından mövcud vəziyyəti təhlil etdikdə aydın görünür ki, Azərbaycanın ixrac axınları əsasən Avropa bazarlarına yönəlib (cədvəl 1.).

2024-cü ildə ölkə üzrə ixrac 26554,1 milyon ABŞ dolları olub ki, bunun 19030,8 milyon ABŞ dolları və 71,8%-i Avropa ölkələrinin payına düşmüşdür. İkinci yerdə 6990,1 milyon ABŞ dolları və ya 26,3% olmaqla Asiya ölkələri qərarlaşıb. Amerika (0,9%), Afrika (1,1%) və Okeaniya (0,01%) ölkələrinə ixracın minimal səviyyədə olması Azərbaycanın qlobal bazarda hələ tam diversifikasiya olunmadığını göstərir. Ümumiyyətlə, Azərbaycan 2024-cü ildə 180 ölkə ilə ticarət əlaqələri qurmuşdur ki, bura ixracla yanaşı idxal əməliyyatları da daxildir [4]. Göründüyü kimi, Azərbaycanın ixrac siyasətində əsas diqqət Avropa bazarına yönəldilmişdir. Bu, bir tərəfdən ölkənin beynəlxalq enerji təhlükəsizliyində rolunu gücləndirsə də, digər tərəfdən ixracın

regional balanssızlığı problemini aktuallaşdırır. Avropa bazarlarında baş verən iqtisadi tənəzzüllər, enerji keçidi siyasətləri və normativ dəyişikliklər Azərbaycanın ixrac gəlirlərinə birbaşa təsir göstərə bilər. Bu kontekstdə coğrafi risklərin azaldılması üçün alternativ regionlara yönəlmiş ixrac strategiyalarının formalaşdırılması zəruri görünür.

**Cədvəl 1.** Azərbaycanın coğrafi regionlar üzrə ixracı.

| Coğrafi regionlar | 2020 | | 2022 | | 2023 | | 2024 | |
|---|---|---|---|---|---|---|---|---|
| | Məbləğ, mln. ABŞ dolları | Xüsusi çəki, % | Məbləğ, mln.ABŞ dolları | Xüsusi çəki, % | Məbləğ, mln.ABŞ dolları | Xüsusi çəki, % | Məbləğ, mln.ABŞ dolları | Xüsusi çəki, % |
| Avropa | 8251,7 | 60,1 | 27730,4 | 72,7 | 23788,6 | 70,2 | 19030,8 | 71,7 |
| Asiya | 5047,2 | 36,7 | 9594,0 | 25,1 | 9956,5 | 29,3 | 6990,1 | 26,3 |
| Amerika | 38,7 | 0,3 | 123,0 | 0,3 | 19,2 | 0,1 | 239,9 | 0,9 |
| Afrika | 324,2 | 2,4 | 560,0 | 1,5 | 104,5 | 0,3 | 292,9 | 1,1 |
| Okeaniya | 70,8 | 0,5 | 139,3 | 0,4 | 29,7 | 0,1 | 0,3 | 0,01 |
| **Cəmi** | **13732,6** | **100,0** | **38146,7** | **100,0** | **33898,5** | **100,0** | **26554,1** | **100,0** |

**Mənbə:** [4] əsasında tərtib edilib.

Asiya bazarları Azərbaycanın ixracının coğrafi diversifikasiyası baxımından böyük, lakin hələ tam istifadə olunmamış potensiala malikdir. Xüsusilə Mərkəzi, Cənubi və Şərqi Asiya regionları əhali sayı, artan istehlak tələbi baxımından perspektivlidir. Azərbaycanın bu regionlarla mədəni və tarixi bağları, eləcə də tranzit ölkə kimi geostrateji mövqeyi ixrac əlaqələrinin genişləndirilməsi üçün əlverişli zəmin yaradır. Lakin praktiki səviyyədə logistika xərcləri, ticarət prosedurlarının mürəkkəbliyi və bazar məlumatlarının məhdudluğu bu potensialın tam reallaşmasına mane olur. Buna baxmayaraq, Orta Dəhliz kimi beynəlxalq nəqliyyat layihələrinin inkişafı Azərbaycanın Asiya–Avropa ticarətində rolunu gücləndirməklə yanaşı, qeyri-neft məhsullarının Asiya bazarlarına çıxış imkanlarını da artıra bilər.

Amerika, Afrika və Okeaniya ölkələrinin bazarları isə Azərbaycanın ixrac coğrafiyasında hələ çox zəif təmsil olunan regionlardır. Bu regionlar adətən yüksək riskli və məlumat baxımından qeyri-şəffaf bazarlar kimi qiymətləndirilsə də, uzunmüddətli perspektivdə diversifikasiya baxımından əhəmiyyətli imkanlar təqdim edir. Xüsusilə infrastruktur, tikinti materialları, gübrə və bəzi sənaye məhsulları üzrə Azərbaycan şirkətləri bu bazarlarda niş mövqelər tuta bilər.

Coğrafi diversifikasiyanın qiymətləndirilməsində nəqliyyat-logistika infrastrukturu həlledici amillərdən biri kimi çıxış edir. Azərbaycanın son illərdə liman, dəmir yolu və avtomobil nəqliyyatı sahələrinə yönəltdiyi investisiyalar ixrac marşrutlarının şaxələndirilməsi üçün ciddi baza formalaşdırıb. Xəzər dənizi üzərindən reallaşdırılan multimodal daşımalar, regional tranzit razılaşmaları və azad iqtisadi zonaların yaradılması ixracatçıların yeni bazarlara çıxış xərclərini azalda bilər. Bu baxımdan mövcud potensialın qiymətləndirilməsi müsbət olsa da, infrastrukturun effektiv istifadəsi və xidmət keyfiyyətinin beynəlxalq standartlara uyğunlaşdırılması hələ də aktual vəzifə olaraq qalır.

Ümumilikdə, coğrafi diversifikasiya baxımından Azərbaycanın ixrac potensialı kifayət qədər geniş və çoxşaxəlidir, lakin bu potensialın reallaşma səviyyəsi hələ tam qənaətbəxş deyil. Ənənəvi bazarlardan kənarda yeni regionlara çıxış imkanları mövcud olsa da, bu proses sistemli ticarət siyasəti, bazar araşdırmaları, ixracatçıların institusional dəstəyi və risklərin idarə olunması mexanizmləri ilə müşayiət olunmalıdır. Qiymətləndirmə göstərir ki, coğrafi diversifikasiya yalnız ixrac coğrafiyasının genişləndirilməsi deyil, həmçinin Azərbaycanın qlobal dəyər zəncirlərinə daha dərin inteqrasiyasını təmin edən strateji alət kimi çıxış edə bilər. Bu istiqamətdə atılacaq ardıcıl addımlar ölkənin ixrac dayanıqlığını gücləndirməklə yanaşı, qeyri-neft sektorunun beynəlxalq

rəqabət qabiliyyətinin artmasına da mühüm töhfə verə bilər.

Azərbaycanın ixrac strukturu uzun illər neft və qaz sektoruna güclü bağlı olub. Neft və qaz məhsulları ölkənin ümumi ixracının hələ də əsas hissəsini təşkil edir və bu, xarici ticarət balansının formalaşmasında yüksək asılılığı ilə seçilir. Bunu şəkil 1-in məlumatlarından da aydın şəkildə görə bilərik.

**Şəkil 1.** Azərbaycanda neftqaz və neftqaz sektoru olmayan sahələr üzrə ixracın həcmi.




**Mənbə:** ARDGK-nın məlumat bazası əsasında tərtib edilmişdir.

Şəkil 1-də verilən məlumatların təhlili göstərir ki, tədqiq olunan 2020–2025-ci illər ərzində Azərbaycanın ixrac strukturunda neft-qaz sektoru hələ də həlledici mövqeyə malik olmuşdur. Belə ki, neft-qaz sektorunun ümumi ixracdakı xüsusi çəkisi 2020-ci ildə 86,5%, 2021-ci ildə 87,8%, 2022-ci ildə 92,0% olmaqla yüksək həddə çatmış, sonrakı illərdə isə tədricən azalaraq 2023-cü ildə 90,2%, 2024-cü ildə 87,3% və 2025-ci ildə 85,5% təşkil etmişdir [5]. Bu dinamika göstərir ki, 2022-ci ildən sonra neft-qaz sektorunun ümumi ixracdakı üstünlüyü nisbətən zəifləməyə başlamış, həmçinin qeyri-neftqaz sektorunun rolu artmışdır. Dəyər ifadəsində də bu meyillər aydın şəkildə müşahidə olunur. Qeyri-neftqaz sektoru üzrə ixrac həcmi bütün dövr ərzində davamlı artım nümayiş etdirmiş və 2025-ci ildə 2020-ci illə müqayisədə 1776,9 milyon ABŞ dolları və ya 96,0% artmışdır. Habelə, 2025-ci ildə bu göstərici 2022-ci ilə nisbətən 580,5 milyon ABŞ dolları və ya 19,0%, 2024-cü ilə nisbətən isə 271,7 milyon ABŞ dolları və ya 8,1% çox olmuşdur ki, bu da qeyri-neftqaz sektorunun ixrac potensialının tədricən genişləndiyini təsdiqləyir. Neft-qaz sektorunda isə fərqli mənzərə formalaşmışdır. Bu sahə üzrə ixracın həcmi 2022-ci ildə ən yüksək səviyyəyə – 35098,9 milyon ABŞ dollarına çatmış, lakin sonrakı illərdə davamlı azalma qeydə alınmışdır. Belə ki, 2025-ci ildə neft-qaz ixracının həcmi 2022-ci illə müqayisədə 13684,3 milyon ABŞ dolları və ya 39,0%, 2023-cü illə müqayisədə 9135,9 milyon ABŞ dolları və ya 29,1%, 2024-cü illə müqayisədə isə 1782,9 milyon ABŞ dolları və ya 7,7% az olmuşdur. Bu azalma əsasən dünya enerji bazarlarında qiymət dəyişkənliyi, hasilat və ixrac həcmlərinin tənzimlənməsi, eləcə də ölkənin ixrac strukturunun mərhələli şəkildə diversifikasiyası siyasəti ilə izah oluna bilər.

**Azərbaycanda ixracın potensialının qiymətləndirilməsi mexanizmləri və istiqamətləri.** Azərbaycan hökuməti bu problemi “2022-2026-cı illər üçün Sosial-iqtisadi inkişaf srategiyası” kimi strateji sənədlərdə müəyyənləşdirib və neftdənkənar sektorları gücləndirmək üçün geniş islahatlar həyata keçirir. Məqsəd neft-qaz sektorunun dominant rolunu azaldaraq qeyri-neftqaz sektoru məhsullarının ixracını

artırmaqdır [6]. Bu sərəncam çərçivəsində atılan addımlar iqtisadiyyatın diversifikasiyasını sürətləndirməyə, yerli istehsalın rəqabət qabiliyyətini artırmağa və dayanıqlı iqtisadi artımı təmin etməyə yönəlib. Həmçinin, qeyri-neftqaz sahələrində investisiya mühitinin yaxşılaşdırılması və ixrac potensialının genişləndirilməsi əsas prioritetlərdən biri kimi çıxış edir.

Azərbaycan üçün qeyri-neft ixracının əsas dayaq nöqtələrindən biri kənd təsərrüfatıdır. Ölkənin ixracının dünya bazarlarında rəqabətədavamlı olması, diversifikasiya strategiyasının uğurla reallaşdırılması üçün vacibdir. Bu baxımdan kənd təsərrüfatı məşğulluğun təmin olunmasında, kənd yerlərinin dolanışığının sabitliyində, ərzaq təhlükəsizliyi və kəndlərin inkişafında önəmli rol oynayır. Dövlət isə rəqabət qabiliyyətli kənd təsərrüfatı və qida sektorunun inkişafını dəstəkləmək üçün əlverişli biznes mühitinin yaradılmasına çalışır ki, bu da iqtisadiyyatın diversifikasiyasına və kənd əhalisinin rifahına töhfə verir. Demək olar ki, Azərbaycanın kənd təsərrüfatı sahəsi böyük ixrac potensialına malikdir və istehsal olunan məhsulların əksəriyyəti yüksək rəqabət qabiliyyətinə sahibdir. Əlverişli iqlim və torpaq resursları bu sektorda inkişaf imkanlarını daha da genişləndirə bilər. Buna baxmayaraq, kənd təsərrüfatının iqtisadiyyatda və ixrac gəlirlərində yaratdığı əlavə dəyərin payı hələ arzu olunan səviyyəyə çatmayıb [7, s.300].

Bununla belə, əldə olunan müsbət dinamika mövcud potensialın tam reallaşdırıldığını deməyə əsas vermir. Əsas məhdudiyyətlər kimi məhsulların emal səviyyəsinin aşağı olması, beynəlxalq bazarların tələblərinə cavab verən standartlaşdırma və sertifikatlaşdırma mexanizmlərinin yetərincə inkişaf etməməsi, həmçinin milli məhsulların xarici bazarlarda tanınmasını təmin edəcək güclü brendləşmənin zəifliyi çıxış edir. Nəticədə ixracın əhəmiyyətli hissəsi hələ də nisbətən aşağı əlavə dəyər yaradan xammal formasında reallaşdırılır. Deməli, təzə meyvə-tərəvəz ixracında müşahidə olunan artım müsbət tendensiyadır, lakin davamlı və daha yüksək gəlirli inkişaf üçün struktur dəyişiklikləri zəruridir. Tövsiyə olaraq, xammal ixracından mərhələli şəkildə emal olunmuş, qablaşdırılmış və yüksək əlavə dəyər yaradan məhsulların ixracına keçidin təşviq edilməsi, emal sənayesinə investisiyaların artırılması, beynəlxalq standartlara uyğun sertifikatlaşdırma sistemlərinin gücləndirilməsi və vahid milli aqrar brendlərin formalaşdırılması məqsədəuyğun hesab olunur. Bu tədbirlər uğurla reallaşdırıldığı təqdirdə, təzə meyvə-tərəvəz sektoru qeyri-neftqaz ixracının diversifikasiyasında aparıcı və strateji istiqamətlərdən birinə çevrilə bilər.

İqtisadiyyatın diversifikasiyası üçün yalnız ixrac məhsullarının sayını artırmaq kifayət deyil, habelə məhsulların əlavə dəyər yaratması və rəqabət qabiliyyətinin yüksəldilməsi vacibdir. Bu baxımdan, Azərbaycan hökumətinin vergi və gömrük güzəştləri kimi stimullaşdırıcı tədbirləri (məsələn, sahibkarların müəyyən dövrlər üçün ƏDV, mənfəət və əmlak vergilərindən azad edilməsi) qeyri-neft məhsullarının istehsalını və ixracını təşviq edir və yerli sahibkarların rəqabət qabiliyyətini gücləndirir [8].

Sənaye sahəsində də diversifikasiya üçün imkanlar mövcuddur. Kimya sənayesi, tikinti materialları istehsalı, metallurgiya və yüngül sənaye sahələri daxili bazarla yanaşı, xarici bazarlar üçün də məhsul istehsal etmək potensialına malikdir. Xüsusilə sənaye parkları və sənaye məhəllələrinin yaradılması bu istiqamətdə mühüm addım hesab olunur. Bu zonalarda fəaliyyət göstərən müəssisələr üçün vergi və gömrük güzəştləri, infrastruktur təminatı ixracyönümlü istehsalın stimullaşdırılmasına şərait yaradır. Bununla belə, texnoloji modernləşmə, ixtisaslı kadr hazırlığı və beynəlxalq bazar tələblərinə uyğunlaşma məsələləri hələ də aktual olaraq qalır.

**Nəticə**

Beləliklə, Azərbaycanda ixracın diversifikasiyalaşdırılmasında mövcud potensialın qiymətləndirilməsi zamanı risk və məhdudiyyətlər də nəzərə alınmalıdır:

– Qlobal bazarlarda rəqabətin yüksək olması, texnoloji gerilik, bəzi sahələrdə məhsul keyfiyyətinin beynəlxalq standartlara tam cavab verməməsi ixracın genişlənməsinə mane ola bilər;
– Digər tərəfdən, xarici bazarlar haqqında məlumatlılığın məhdudluğu və marketinq

bacarıqlarının zəifliyi də ixracın diversifikasiyasını ləngidən amillər sırasındadır. Bu problemlərin aradan qaldırılması üçün dövlət və özəl sektor səviyyəsində koordinasiyalı və uzunmüddətli yanaşma tələb olunur;

– Aparılan araşdırmalardan Azərbaycanda ixracın diversifikasiyalaşdırılması üçün mövcud potensialın kifayət qədər geniş və çoxşaxəli olduğunu deyə bilərik;
– Təbii resurslardan kənar sahələrin inkişafı, insan kapitalına investisiya, texnoloji yenilənmə və effektiv institusional mexanizmlər bu potensialın reallaşdırılmasında əsas açar rolunu oynayır. Diversifikasiya prosesi qısa müddətdə nəticə verən bir addım deyil, lakin ardıcıl və məqsədyönlü siyasət nəticəsində Azərbaycanın ixrac strukturu daha balanslı, dayanıqlı və rəqabətqabiliyyətli hala gələ bilər;
– Bu isə ölkənin qlobal iqtisadi sistemdə mövqeyinin möhkəmlənməsinə və uzunmüddətli sosial-iqtisadi rifahın təmin olunmasına xidmət edəcəkdir və s.

**ƏDƏBİYYAT SİYAHISI:**


1. Mustafayev E.R. İqtisadiyyatın diversifikasiyası, onun drayverləri və qiymətləndirilməsi metodları. Mingəçevir Dövlət Universiteti. Dayanıqlı inkişaf, 2022;2(1):29–35.
2. İxrac: Anlayışı, Əhəmiyyəti, İqtisadi İnkişafdakı Rolu: [Elektron resurs]. https://qebulol.az/ixrac/.
3. Aliyev Sh.T. Reassessing Non-Oil Export Diversification in Azerbaijan: An ARDL-Based Empirical Evaluation of Credit Dynamics, Industrial Output, and Technological Innovation in Driving Structural Transformation. SW MANAGEMENT-Multidisciplinary, Scientific Work and Management Journal, 2025;35(2):254–275.
4. ARDSK: [Elektron resurs]. https://www.stat.gov.az/source/trade/.
5. Azərbaycan Respublikası Xarici Ticarətinin Gömrük Statistikası [Elektron resurs]. https://customs.gov.az/az/faydali/gomruk-statistikasi/xarici-ticaretin-veziyyeti-haqqinda.
6. “Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı, 22 iyul 2022.
7. Jamalkhanov E. Export diversification in Azerbaijan: assessment of the potential for sustainable development for agriculture. Ukrainian Journal of Applied Economics, 2021;6(1): 298–305.
8. Azərbaycan brendi ilə xarici bazarlara çıxarılacaq qeyri-neft sektoru məhsullarının artırılması imkanları: [Elektron resurs]. https://azertag.az/xeber/azerbaycan_brendi_ile_xarici_bazarlara_chixarilacaq_qeyri_neft_sektoru_mehsullarinin_artirilmasi_imkanlari-1053818


**Sabir Ilham SHUKUROV**
PhD student of Azerbaijan University of Cooperation

## EXPORT DIVERSIFICATION IN AZERBAIJAN AND ASSESSMENT OF ITS POTENTIAL

**Summary**

The purpose of the study is to assess the diversification of exports in Azerbaijan and its potential. First of all, the problems of export diversification are explained. The possibilities of increasing export potential in the modern era are analyzed and summarized. The importance of expanding the production of export-oriented products is substantiated. Recommendations are given and proposals are prepared to increase the export potential in the country. The research method used

a number of methods, including scientific abstraction, analysis, synthesis and comparative analysis. At the same time, the approaches of various authors on export diversification and increasing export potential were taken into account. The results of the study are likely to be used in the current period to improve the structure of the country's foreign trade turnover, diversify exports, and assess its potential.

**Keywords:** Azerbaijan, export, export diversification, export potential, export potential assessment, export concept.

**Сабир Ильхам ШУКУРОВ**
Докторант Азербайджанского Университета Кооперации

**ДИВЕРСИФИКАЦИЯ ЭКСПОРТА В АЗЕРБАЙДЖАНЕ И ОЦЕНКА ЕЕ ПОТЕНЦИАЛА**

**Резюме**

Целью исследования оценить диверсификацию экспорта Азербайджана и ее потенциал. В первую очередь, рассматриваются проблемы диверсификации экспорта. Анализируются и обобщаются возможности увеличения экспортного потенциала в современную эпоху. Обосновывается важность расширения производства экспортно-ориентированной продукции. Предлагаются рекомендации и разрабатываются предложения по увеличению экспортного потенциала страны. В исследовании использовался ряд методов, включая научную абстракцию, анализ, синтез и сравнительный анализ. При этом учитывались подходы различных авторов к диверсификации экспорта и повышению экспортного потенциала. Результаты исследования, вероятно, будут использованы в текущий период для улучшения структуры внешнеторгового оборота страны, диверсификации экспорта и оценки его потенциала.

**Ключевые слова:** Азербайджан, экспорт, диверсификация экспорта, экспортный потенциал, оценка экспортного потенциала, концепция экспорта.

**Daxil olub:** 26.02.2026